# DAYANIQLI İQTİSADİ İNKİŞAFDA İNNOVATİV SAHİBKARLIQ

*Kərimli Günel Fazil qızı, müəllim*
*Mingəçevir Dövlət Universiteti*

Dayanıqlı iqtisadi inkişafda innovasiya həlledici amil hesab edilir. Müasir dövrdə texnoloji tərəqqiyə əsaslanan innovativ sahibkarlıq iqtisadiyyatın inkişafında mühüm rol oynayır. İnnovativ fəaliyyət milli tərəqqinin müəyyən edilməsində başlıca amil kimi həyat standartlarının yüksəlişinin böyük hissəsini təşkil edir. Bu gün srateji əhəmiyyətli innovasiya biznes subyektləri tərəfindən dəstəklənir. Rəqəmsal transformasiya və qloballaşma şəraitində innovasiya yüksək əlavə dəyərə malik iqtisadiyyatlar üçün artım və inkişafın əsas mənbəyi hesab edilir.

İnnovativ sahibkarlıq yalnız yeni biznes modellərinin yaranmasını təşviq etmir, həm də iqtisadi artımı, sosial problemlərin həllini və dayanıqlı inkişafı təmin edir. Bu yanaşma rəqəmsal texnologiyalar, yeni məhsullar və xidmətlər təqdim etməklə bazar iqtisadiyyatına dərin təsir göstərir. Qlobal miqyasda sürətlə dəyişən iqtisadi mühit şəraitində sahibkarlar innovativ yanaşmalar tətbiq etməklə, rəqabət üstünlüyü əldə edir və iqtisadiyyatın müxtəlif sahələrində keyfiyyətcə yeni imkanlar yaradırlar.

Kiçik və orta sahibkarlığın uğurlu inkişafı və yeni iş yerlərinin yaradılması üçün güclü və məsuliyyətli sahibkarlıq mədəniyyətinin, dəqiq və asan tətbiq edilən qaydaları olan biznes mühitinin, maliyyə və biznesin inkişaf xidmətlərinə çıxışın olması olduqca vacibdir. Dayanıqlı iqtisadi inkişafın və sosial tərqqinin əsas amili kimi sahibkarlıq innovasiyalı fəaliyyətə və bazarda rəqabət qabiliyyətinin yüksəlməsinə, eləcə də yeni iş yerlərinin yaradılmasına kömək edir. İnnovasiya yalnız yeni məhsulların və xidmətlərin yaradılması demək deyil, bu məqsədlə mühitin yaxşılaşdırılması xüsusilə vacibdir. İnovasiya sahibkarlığın başlanğıc nöqtəsi kimi yeni və dəyərli ideyaların aradılmasını nəzərədə tutur və sahibkarlıq bu ideyaları bazara çıxarmaq və uğurlu biznes qurmaq kimi risk və məsuliyyəti öz üzərinə götürərək daha da irəli gedə bilər [3].

İqtisadi inkişaf nəzəriyyələrinə əsasən, innovativ sahibkarlıq iqtisadiyyatın böyüməsində mühüm rol oynayır. Şumpeterin "yaradıcı dağıdıcılıq" konsepsiyasına görə, sahibkarlar yeni məhsullar, xidmətlər və texnologiyalar təqdim edərək, mövcud iqtisadi strukturları dəyişir və bazar rəqabətini artırır. Şumpeterin yanaşması göstərir ki, innovativ sahibkarlar iqtisadiyyatın dinamikasını təmin edir və rəqəmsal transformasiya ilə daha da genişlənmişdir. Süni intellekt, blokçeyn, robot texnologiyaları və biotexnologiya kimi sahələrdə əldə olunan nailiyyətlər iqtisadiyyatın transformasiyasında mühüm rol oynayır. Bu innovasiyalar iqtisadi artımı stimullaşdırır və daha dayanıqlı iqtisadi sistemlərin formalaşmasına zəmin yaradır [2].

İnnovativ sahibkarlığın iqtisadi inkişafa təsirini müxtəlif aspektlərdə nəzərdən keçirmək mümkündür. İlk növbədə, innovativ sahibkarlıq yeni iş yerlərinin yaradılmasına səbəb olur. Texnoloji sahələrdə fəlaiyyət göstərən şirkətlər yalnız yüksək məhsuldarlıq göstərən işçilər üçün deyil, həm də ənənəvi sektorlarda yeni iş imkanları üçün bazar yaradır. Bu isə məşğulluq səviyyəsinin artmasına və işsizlik probleminin azaldılmasına kömək edir. İkincisi, innovativ sahibkarlıq rəqabət

qabiliyyətini artırır. Sahibkarlar yeni məhsul və xidmətlər təqdim etməklə bazar iştirakçıları arasında rəqabəti gücləndirir və bununla da iqtisadiyyatın ümumi effektivliyini artırırlar. Üçüncüsü, innovativ sahibkarlıq texnologiyanın yerli iqtisadiyyata inteqrasiyasını təmin edir. Rəqəmsal texnologiyanın tətbiqi ilə ənənəvi sektorlarda məhsuldarlıq artır və xərclər azaldılır. Bu proses isə ümumi iqtisadi inkişafı stimullaşdırır [1].

Qeyd edilənlərlə yanaşı, innovativ sahibkarlığın inkişafında problemlər də mövcuddur. Hüquqi və inzibati maneələr innovativ sahibkarların fəaliyyətini çətinləşdirən əsas amillərdən biridir. Patent hüquqlarının qorunmasında olan çətinliklər, eləcə də sahibkarlığın qeydiyyatı və fəaliyyəti ilə bağlı inzibati maneələr sahibkarlığın işini ləngidir. Bundan başqa, innovativ sahibkarlığın qarşısında duran digər əsas problemlərdən biri də maliyyə resurslarının çatışmazlığıdır. İnnovativ layihələr adətən yüksək risklə əlaqələndirildiyi üçün maliyyə institutları bu sahəyə sərmayə qoymağa meylli deyillər. Bu isə innovativ sahibkarların geniş miqyaslı layihələr həyata keçirmək imkanlarını məhdudlaşdırır.

İnnovativ sahibkarlığın inkişafını ləngidən digər faktor kimi texnoloji infrastrukturun zəifliyini və kadr çatışmazlığını qeyd etmək olar. Rəqəmsal texnologiyaların sürətli inkişafına baxmayaraq, bir çox regionlarda lazımi texnoloji infrastrukturlar mövcud deyil. Bu isə regionlarda innovativ saihbkarlığın inkişafını çətinləşdirir. Digər tərəfdən, təhsil sisteminin bəzi tələblərinə uyğun olmaması səbəbindən sahibkarlıq sahəsində yüksək ixtisaslı kadrların çatışmazlığı müşahidə edilir.

İnnovativ sahibkarlığın inkişafında mövcud problemlərin həlli üçün bir sıra təkliflər vermək olar. İlk növbədə innovativ sahibkarlığın inkişafını dəstəkləyən hüquqi və inzibati mexanizmlər təkmilləşdirilməlidir. Patent hüquqlarının qorunması ilə bağlı daha effektiv mexanizmlərin yaradılmalıdır. Bundan əlavə innovativ sahibkarlığın qeydiyyat prosesləri sadələşdirilməlidir. Dövlət tərəfindən innovativ sahibkarlıq üçün maliyyələşdirmə mexanizmləri genişləndirilməlidir. Xüsusi risk kapitalı fondlarının yaradılması və dövlət-özəl sektor əməkdaşlığının inkişaf etdirilməsi innovativ sahibkarlığın maliyyə problemlərinin həllinə töhfə verə bilər. Texnoloji infrastrukturların inkişafı regionlarda innovativ sahibkarlığın təşviqi üçün vacibdir. Rəqəmsal transformasiyanı sürətləndirmək üçün regionlarda texnoloji parklar və innovasiya mərkəzləri yaradılmalıdır. Bundan başqa, təhsil və sahibkarlıq sahəsində əməkdaşlıq artırılmalı, müasir sahibkarlıq və innovasiya bacarıqlarını inkişaf etdirmək üçün xüsusi təlim proqramları təşkil edilməlidir [1].

Nəticə olaraq, innovativ sahibkarlıq iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biridir. Yalnız itisadi artımı təmin etməklə qalmır, həm də sosial problemlərin həllinə və dayanıqlı inkişafın təmin olunmasına mühüm töhfə verir. Lakin bu sahənin inkişafı üçün hüqui və maliyyə mexanizmlərinin təkmilləşdirilməsi, texnoloji infrastrukturların genişləndirilməsi və yüksək ixtisaslı kadrların hazırlanması zəruridir. Dövlət və özəl sektor bu sahədə birgə fəaliyyət göstərərək, innovativ sahibkarlığın potensialını tam reallaşdırmaq üçün şərait yaratmalıdır. Beləliklə, innovativ sahibkarlıq gələcək iqtisadi inkişafın əsas təməli kimi çıxış edəcəkdir.

Ədəbiyyat:
1. Əliyev T.Ş., Babayev L.B. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil, 2013.
2. Schumpeter. The Theory of Ecomomic Development, 1934.
3. The Benefits of Innovative Entrepreneurship. URL: https://allthingsinnovation.com/content/the-benefits-of-innovative-entrepreneurship

## AQRAR SAHƏDƏ YAŞIL İQTİSADİYYATI TƏTBİQİNƏ İNNOVATİV YANAŞMA VƏ KADR HAZIRLIĞI

*Məmmədli Yeganə Zakir qızı, i.f.d., b/m.*
*Mingəçevir Dövlət Universiteti*

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, elmi-texniki tərəqqi və yeni texnologiyların tətbiqi əslində məhsuldar qüvvələr sahəsində köklü dəyişikliklər, elmi yeniliklərin istehsalda davamlı olaraq tətbiqi bütövlükdə müasir iqtisadi həyatın ən mühüm normalarından birinə çevrilmişdir. Odur ki, innovasiyalı yanaşma bütövlükdə dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatında, eləcə də müasir Azərbaycan iqtisadiyyatında əhəmiyyətli rol oynamış və müasir dövrdə baş verən qlobal böhrandan çıxış imkanlarından biri olmuşdur.

Araşdırmaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, əslində innovasiyalar kifayət qədər qabiliyyət və istedadın reallaşdırılmasını tələb edən biliklərin məcmusudur. İnnovasiya fəaliyyətini novatorluq, yenilikçilik xarakterizə edir ki, bu da ilk növbədə bir sahədə aktiv şəkildə fəaliyyət göstərmək imkanına malik olur. İnnovasiyaların müvəffəqiyyətli olması əmək fəaliyyətinin və gücün bir sahəyə yönəldilməsini tələb edir. Əgər təsərrüfat subyektləri və ayrı-ayrı fiziki şəxslər buna hazır deyilsə müsbət nəticə əldə etmək mümkün deyil.

Yeni elmi-texniki məhsul, maya dəyəri öz analoqları ilə müqayisədə nisbətən aşağıda olan yeni istehsal deməkdir. Təbiidir ki, innovasiyaların əldə edilməsi üçün ilk növbədə istehsalatda mütərəqqi texnologiyaların tətbiqi vacibdir. Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatında innovasiyaların tətbiqi kifayət qədər mürəkkəbdir.

Əhalinin yüksək keyfiyyətli qida məhsullarına tələbatını maksimum ödəmək və ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə kənd təsərrüfatının və onunla qarşılıqlı əlaqəyə malik sahələrin davamlı inkişafı müasir şəraitdə dövlətin aqrar siyasətinin ən mühüm vəzifələridir. Birtərəfli yanaşma bazar iqtisadiyyatı şəraitində istər kənd təsərrüfatı əmtəə istehsalçılarını, istərsə də bütövlükdə aqrar-emal sektorunun köklü problemlərini aradan qaldırmaq iqtidarında deyildir. Təbii ki, bütün bunlar istehsalın iqtisadi səmərəliliyinə də öz təsirini göstərir. Məlumdur ki, köhnə texnologiya əsasında məhsul buraxılışı son nəticədə yüksək rəqabətə davamlılığın təmin edilməsinə imkan vermir. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə elmi-texniki tərəqqinin ən yeni kənd təsərrüfatı məhsulları istehsalına, xüsusilə daha çox emal sənayesinə tətbiqinə üstünlük verir ki, bu da istehsalın rəqabətədavamlılığına əlverişli şərait yaradır.